


# AYLIQ İCMAL

Aprel

GESCO ASC

«GESCO» Açıq Səhmdar Cəmiyyəti



# MÜNDƏRİCAT

**İnsan resursları**

04 Vəzifədə yüksəliş

05 Xidmətdə fərqlənənlər

**Əməliyyat fəaliyyəti**

07 Ayın fəaliyyəti

08 Statistika

**Ayın xəbərləri**

10 Xəbərlər

**Qızıl qaydalar**

12 6+1 mühafizəçinin əsas vəzifələri



# İNSAN RESURSLARI

**Dəyər verdiklərinizi
qoruyuruq!**

# VƏZİFƏDƏ YÜKSƏLİŞ



## DÜNYAMALIYEV RAZİM TİKRAR
**(Xidmət rəisi)**

30.04.2019-cu il tarixindən "GESCO" ASC-də növbə rəisi vəzifəsində çalışan Dünyamalıyev Razim Tikrar oğlu 03.04.2023-cü il tarixində xidmət rəisi vəzifəsinə keçirilmişdir.



## ƏSGƏROV MƏMMƏD HƏSƏN
**(Xidmət rəisinin müavini)**

"GESCO" ASC-daki əmək fəaliyyətinə 03.08.2021-ci ildə başlayan Əsgərov Məmməd Həsən oğlu 10.04.2023-cü il tarixindən xidmət rəisinin müavini vəzifəsinə təyin edilmişdir.



## XIDIROV LƏTİF RÖVŞƏN
**(Növbə rəisi)**

Xıdırov Lətif Rövşən oğlu 20.09.2018-ci il tarixindən etibarən mühafizəçi vəzifəsində çalışmış və 10.04.2023-cü il tarixindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## MIKAYILOV TALEH SƏMƏD
**(Baş mühafizəçi)**

"GESCO" ASC-dəki fəaliyyətinə 01.07.2020-ci il tarixində başlamış Mikayılov Taleh Səməd oğlu 27.04.2023-cü ildən baş mühafizəçi vəzifəsinə təyin edilmişdir.

***Əməkdaşlara yeni fəaliyyətlərində uğurlar arzulayırıq!***

Vəzifədə yüksəliş və sosial lift prinsipi "GESCO" ASC-nin kadr siyasətinin əsasını təşkil edir.

# XİDMƏTDƏ FƏRQLƏNƏNLƏR



Aprel ayı ərzində xidmətdə fərqlənən mühafizəçi əməkdaşımız Soltanov Taleh Sultan oğlu olmuşdur. O, mühafizəsini təmin etdiyimiz layihələrin "Mühafizə planı və standart əməliyyat prosedurları" sənədinin hazırlanması prosesində yaxından iştirak edərək, xüsusi proqram təminatından istifadə etməklə işçi qrupuna dəstək göstərdiyi üçün mükafatlandırılmışdır.

# ƏMƏLİYYAT FƏALİYYƏTİ






# AYIN FƏALİYYƏTİ

**“Formula 1 Azərbaycan Qran Pri”sinin mühafizəsi**

28-30 aprel tarixlərində keçirilən “Formula 1” yarışlarının mühafizəsində “GESCO” ASC də iştirak etmişdir. Layihə rəhbəri, xidmət rəisi, qadın və kişi mühafizəçilərdən ibarət komandamız tərəfindən 24 saatlıq rejimlə beynəlxalq tədbirin “paddock” üzrə mühafizəsi təmin olunmuşdur.

## Mühafizəçilər tərəfindən aprel ayı ərzində qarşısı alınmış hadisələrin

# STATİSTİKASI







ULTORAS
DROUISHERE
QARABAĞ ORDU
www.bridge.az
Neokart
SLAVYANKA
Bank Respublika
GESCO SECURITY COMPANY
G
Since 2005

# XƏBƏRLƏR



# XƏBƏRLƏR

**"Sabah" futbol klubunun növbəti oyunu mühafizə olunub**

16 aprel tarixində keçirilən "Sabah" və "Qarabağ" futbol klubları arasındakı oyunun mühafizəsi "GESCO" ASC tərəfindən təmin olunub. Oyuna cəlb olunmuş əməkdaşlarımız giriş-çıxışa, oyunu izləyənlərin aidiyyəti bölmələr üzrə düzgün yerləşdirilməsinə və kənar şəxslərin stadiona daxil olmasına nəzarəti həyata keçirib.



# QIZIL QAYDALAR

“

# 6+1 mühafizəçinin əsas vəzifələri

## Mühafizə olunan ərazini gəzmək

Mühafizəçinin vəzifələrindən biri mühafizə olunan ərazini istər piyada, istər xidməti avtomobil və ya atla gəzərək patrul xidməti göstərməkdir. Bu, mühafizə işinin ən vacib və bir o qədər də təhlükəli tərəfidir. Bunun üçün mühafizəçi lazımi avadanlıqlarla da təchiz olunmalıdır.

Onlar qorunan ərazidə təhlükəsizlik yoxlamaları aparmalı və potensial təhlükə, risk müşahidə etdikdə dərhal lazımi reaksiya verməyi bacarmalıdırlar.

## Giriş-çıxışlara nəzarət etmək

Mühafizəçilər qorunan binanın (ərazinin) giriş-çıxışlarına nəzarət edən şəxslərdir. Onlar binaya kimlərin daxil olduğuna, orada nə qədər qaldığına nəzarət etməli və bu məlumatların qeydiyyatını aparmalıdırlar. Bu məlumatlar düzgün və əhatəli qeyd olunmalıdır ki, təhlil zamanı onlardan istifadə etmək mümkün olsun.

## CCTV və/və ya siqnalizasiya sistemlərinə nəzarət etmək

Mühafizə olunan yerdə kameralarla müşahidə çətin olduğu qədər də vacibdir. Bu səbəbdən mühafizə personalı həmişə ayıq-sayıq olmalı, hər hansı bir şübhəli vəziyyətlə rastlaşdıqda dərhal aidiyyəti üzrə xəbər verməli və qeydiyyatını aparmalıdır.

## Fövqəladə hallar zamanı köməklik göstərmək

Mühafizəçi əməkdaşlar ərazidə təkcə mühafizə üçün deyil, həm də fövqəladə hallar zamanı növbəti addımların nədən ibarət olacağını bilmək, bu kimi hallar baş verdikdə müvafiq köməklik göstərmək üçün xidmət yerindədirlər.

## İlkin tibbi yardım göstərmək

Fövqəladə vəziyyətlərdə mühafizə əməkdaşı ayıq olmalı və dərhal müvafiq ilk yardımı göstərməyi bacarmalıdır. Bu səbəbdən ilk yardım təlimi bütün mühafizəçilər üçün zəruridir.

## Şübhəli şəxs barədə polisə məlumat vermək

Mühafizəçi hər hansı bir şəxsin ətrafdakı insanlar və ya özü üçün təhlükə yaratdığından şübhələnirsə, dərhal bu barədə polisə məlumat verməlidir.

## Ehtiyac olduqda kömək çağırmaq

Fövqəladə hallarda mühafizəçilər polis, yanğın söndürən və ya təcili yardım xidmətlərindən kömək istəyə bilərlər. Xüsusilə belə vəziyyətlərdə mühafizəçilər hər zaman sakit olmalı və dərhal müvafiq orqanlara xəbərdarlıq etməlidirlər, çünki fövqəladə hallarda hər saniyə önəmlidir.

GESCO SECURITY COMPANY

Since 2005

# GESCO ASC

## BİZİMLƏ ƏLAQƏ


www.gesco.az

office@gesco.az

+994 12 310 05 77
+994 55 207 00 40

Bakı, Ziya Bünyadov prospekti,
1965-ci məhəllə, Çinar Park
Biznes Mərkəzi